*"Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələr çox uğurla inkişaf edir. Bu əlaqələr dostluq, qardaşlıq əsasında qurulubdur. Bizim çox zəngin birgə tariximiz, ortaq dəyərlərimiz vardır. Bu gün Türkiyə ilə Azərbaycan arasında əlaqələr bu möhkəm təməl əsasında qurulur".*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**




# Möhkəm təməl üzərində qurulmuş Azərbaycan-Türkiyə birliyi əbədidir

*Dostluq və qardaşlıq münasibətlərini ortaq dəyərlər, hərtərəfli əməkdaşlıq, etimad və hər iki ölkənin maraqlarına qarşılıqlı hörmət əsasında gündən-günə daha da möhkəmləndirən Azərbaycan və Türkiyə bu gün beynəlxalq məsələlərdə birgə mövqe nümayiş etdirərək dünyaya Azərbaycan-Türkiyə birliyinin sarsılmazlığını nümayiş etdirir, sülhün, əmin-amanlığın, təhlükəsizliyin, ölkələrin suverenliyinin, ərazi bütövlüyünün ən vacib şərt olduğunu bəyan edirlər.*

Azərbaycan ilə Türkiyə arasında hər zaman dostluq, qardaşlıq, geniş əməkdaşlıq əlaqələri olmuş və bu əlaqələr yalnız iki dost, qardaş türk dövləti arasında məhdudlaşmayaraq bütün türk dünyasını əhatə etmişdir. Müstəqilliyin ilk illərində Türkiyə iki qardaş ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq dövlət quruculuğu yolunda Azərbaycanın səylərini dəstəkləməklə, hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərmiş, Azərbaycanın dünya birliyinə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında, ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə dövləti ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət vermişdir. Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qardaş Türkiyə dövləti ilə münasibətləri yüksələn xətt üzrə inkişaf etdirməsi bu gün bu münasibətləri müttəfiqlik səviyyəsinə yüksəltmişdir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın may ayının 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi dünyada dəniz üzərində inşa edilən beş limanından biri olan Rize-Artvin Hava Limanının açılış mərasiminə dəvət etməsi ən yüksək səviyyədə olan bu münasibətlərin günbəgün inkişaf etdiyinin, çətin günlərdə olduğu kimi, xoş günlərdə də Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürüdür. Açılış mərasimində çıxış edərkən Prezident Rəcəb Tayyib Ərdoğan bu gün ölkəsinin iqtisadiyyatının hərtərəfli inkişaf etdiyini və bu kontekstdə nəqliyyat sahəsinin daha da inkişafı üçün mühüm layihələrin reallaşdırıldığını, Rize-Artvin Hava Limanının açılmasının böyük əhəmiyyətini vurğulamış, ümumi sahəsi 3 milyon kvadratmetr olan bu hava limanının Türkiyənin iqtisadiyyatında, o cümlədən turizm sahəsində yeni layihələrin reallaşmasına böyük töhfələr verəcəyini bildirmişdir. Qeyd edək ki, dünyada dənizi doldurma üsulu ilə inşa edilən 5 hava limanı mövcuddur ki, bunlardan ikisi Türkiyədədir. Cənubi Koreyanın paytaxtı Seuldan təxminən 50 kilometr kənarda tikilmiş, dəniz səviyyəsindən cəmi 7 metr hündürlükdə olan, 5 milyard dollardan çox sərmayə ilə başa gələn Seul Incheon Airport Hava Limanı Uzaq Şərqin ən işlək hava limanıdır. Dəniz sahili ilə tikilmiş Kobe Hava Limanı Yaponiyada, digəri isə Honq-Konqda yerləşir. Təməli 2017-ci il aprelin 3-də Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qoyulan Rize-Artvin Hava Limanı isə Türkiyədə Ordu-Giresun aeroportundan sonra dənizi doldurularaq inşa edilən ikinci, dünyada isə beşinci hava limanıdır.

**(davamı 3-cü səhifədə)**



## Baş nazir Əli Əsədov Birləşmiş Ərəb Əmirliklərinə




# Möhkəm təməl üzərində qurulmuş Azərbaycan-Türkiyə birliyi əbədidir

**(əvvəli 1-ci səhifədə)**

Ötən il oktyabr ayının 26-da isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan işğaldan azad olunmuş Füzuli rayonunda ən müasir səviyyədə inşa olunan beynəlxalq hava limanının açılış mərasimində iştirak etmiş, dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olmuşlar. "Qarabağ" təyyarəsinin Füzuli hava limanına enməsi, işğaldan azad olunmuş torpaqlarımızda ilk beynəlxalq hava limanının açılması tarixi hadisəyə çevrilmişdi. Dövlət başçıları regionun nəqliyyat imkanlarını daha da genişləndirəcək Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsinin bölgəyə səfər edənlərin rahatlığını təmin edəcəyini, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcəyini və ən əsası isə bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacağını bildirmişlər. İşğaldan azad olunmuş Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanının açılışından sonra iki dövlət başçısı arasında tarixi müttəfiqlik haqqında Şuşa Bəyannaməsi imzalanmışdır.

2021-ci il iyunun 15-də Azərbaycanın və bütövlükdə türk dünyasının mədəniyyət beşiyi sayılan Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannamə"sində hər iki dost, qardaş ölkənin bundan sonra da türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli ölkələrin Parlament Assambleyası çərçivəsində fəaliyyətlərinə dəstək verəcəkləri nəzərdə tutulur. Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə - 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsini, 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq bütün türk dünyasının birlik və rifahına xidmət edəcək, milli və beynəlxalq səylərin artırılmasına təkan verəcək, türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsində birgə əməkdaşlığı gücləndirəcək. Qars müqaviləsinin məntiqi davamı olan Şuşa Bəyannaməsi Cənubi Qafqazda münasibətlərin yeni formada inkişafını təmin edəcək. İki qardaş ölkənin xalqları arasındakı dostluq və qardaşlıq əlaqələrinin yeni, müttəfiqlik səviyyəsinə qaldırılması isə xalqlarımızın tarix, soykök, din, dil, mədəniyyət birliyinə söykəndiyini bir daha təsdiqlədi, dostluq və qardaşlıq nümunəsini bütün dünyaya nümayiş etdirdi. Şuşa Bəyannaməsi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin bütövlükdə türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərinin regional və beynəlxalq müstəvilərdə irəli aparılması istiqamətində atılmış uğurlu, məqsədyönlü və düşünülmüş siyasətinin nümunəsidir. Bu, həm də Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərin daha da genişlənməsinə və dərinləşməsinə mühüm töhfədir. Ölkə başçımız İlham Əliyevin dediyi kimi "Biz dünya miqyasında bir-birinə ən yaxın ölkələrik və ölkələrimiz çox böyük sınaqlardan keçibdir. Keçən il bizim qədim və tarixi şəhərimizdə - Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması bizim əlaqələrimizi müttəfiqlik səviyyəsinə qaldırdı".

44 günlük Vətən müharibəsi Azərbaycanın qalibiyyəti ilə başa çatdı. Ali Baş Komandan, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, yenilməz ordumuzun şücaəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında sıx birliyi sayəsində ölkə başçısı İlham Əliyev qarşısında duran çox mürəkkəb və taleyüklü məsələlərin həllinə nail oldu, Azərbaycan xalqı öz tarixi inkişafının zirvəsinə yüksəldi. Xalqımız illərlə gözlədiyi qələbəyə nail oldu, milli ruhu, milli mənliyi özünə qayıtdı. Prezident İlham Əliyev qətiyyəti, iradəsi və əməli fəaliyyəti ilə müasir Azərbaycanın bugünkü reallıqlarını, gələcəyə aparan yollarını, müstəqil Azərbaycanın tərəqqisini təmin etdi. Bütün çətinliklərə baxmayaraq, Azərbaycana həm bölgədə, həm də dünyada layiqli yer qazandırdı. Xalq-iqtidar birliyi, dövlətin apardığı siyasətə xalq tərəfindən olan dəstək, bütün cəmiyyətin ümumi bir ideya - milli ideya ətrafında birləşməsi, vətəndaş həmrəyliyi Azərbaycanın Zəfər tarixini yazdı.

İkinci Qarabağ müharibəsinin başladığı ilk saatlarından son gününə qədər Azərbaycanın yanında olan qardaş Türkiyə dövləti və türk xalqı müharibə bitdikdən, şanlı zəfərimiz əldə olunduqdan sonra da ölkəmizə dəstəyini və ən əsası qardaş məhəbbətini əsirgəmədi, hər zaman olduğu kimi, çətin günlərdə Azərbaycana arxa-dayaq oldu. Prezident İlham Əliyev Türk Şurasının Zirvə görüşündə bunu xüsusi vurğulayaraq demişdir ki, "Qarabağ savaşında göstərdiyimiz əzmkarlıq, iradə, rəşadət bizi böyük Zəfərə gətirib çıxardı və onu da bildirməliyəm ki, bunu hər kəs görür, bizə əlavə güc verən əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarından başlayaraq son dəqiqələrinə qədər bizə göstərdiyi dəstək və mənəvi dayaqdır. Çünki biz bu dəstəyi hiss edərək, onun sözlərinə qulaq asaraq özümüzü daha da güclü hiss etdik. Çünki hörmətli Cümhurbaşqanı demişdir ki, Azərbaycan bu savaşda tək deyil. Türkiyə Azərbaycanın yanındadır və hər zaman yanında olacaqdır və bu, bizə əlavə güc verdi. Bu, bəzi qüvvələri - Ermənistan himayədarlarını bu savaşdan kənarda tutdu və bizə imkan verdi ki, biz bu şərəfli missiyamızı yerinə yetirək".

Bu gün Azərbaycan sürətli və dinamik inkişaf yoluna qədəm qoyub. Regionda söz sahibinə çevrilən ölkəmiz dünya dövlətləri ilə əlaqələrini genişləndirir. Türkiyə Respublikası Azərbaycana qardaş ölkə olmaqla bərabər, həm də etibarlı tərəfdaşdır. Bu gün Türkiyə ilə Azərbaycan arasında humanitar, sosial, hərbi-siyasi, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahəsində əlaqələr intensiv şəkildə inkişaf etdirilərək daha da dərinləşdirilir. Əlaqələrini bütün istiqamətlərdə inkişaf etdirən Azərbaycan və Türkiyə arasında ölkələrin milli maraqlarına cavab verən və heç bir dövlətə yönəlməyən hərbi-siyasi, kiber təhlükəsizlik sahəsində əməkdaşlıq daha da inkişaf etdirilir, hər iki dövlətin milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Azərbaycan-Türkiyə münasibətləri həmçinin, regionun enerji təhlükəsizliyinin gücləndirilməsi sahəsində regional əməkdaşlığa töhfə verir. Belə ki, iki ölkənin ərazisindən keçən Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması qarşılıqlı əməkdaşlığı daha da möhkəmləndirəcək. Eyni zamanda, Azərbaycan ilə Türkiyəni və Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək Zəngəzur dəhlizinin açılması və Naxçıvan-Qars dəmir yolunun tikintisinin başa çatması iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrini daha da intensivləşdirməklə yanaşı, həm də regionda sülhə və əmin-amanlığa, beynəlxalq birliyə xidmət edəcək.

Türkiyə-Azərbaycan iki qardaş ölkə olaraq xalqlarının milli təhlükəsizliyinin təmin edilməsində və milli təhlükəsizliyə qarşı yönələn hər hansı təhdid və təhlükənin aradan qaldırılması, hərbi-texniki və müdafiə istiqamətində birgə fəaliyyət göstərərək bir-birinə davamlı, səmərəli yardım göstərir. Ölkələrimiz arasında müdafiə sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələri günbəgün daha da genişlənir. Belə ki, birgə hərbi təlimlərin və müdafiə hazırlığı üzrə tədbirlərin keçirilməsi, silahlı qüvvələr üçün mütəxəssislərin hazırlanması və s. sahələrdə birgə əməkdaşlıq həyata keçirilir.

İqtisadi əməkdaşlıq məsələlərində də ölkələrimiz etibarlı tərəfdaşlıq nümunəsi göstərərək öz potensiallarına uyğun olaraq qlobal və regional enerji təhlükəsizliyinin təmin edilməsi və iqtisadiyyatlarının gücləndirilməsi məqsədilə mühüm əhəmiyyətli enerji layihələrinin davamlı fəaliyyəti üçün bütün istiqamətlərdə əməkdaşlıqlarını genişləndirirlər.

Türkiyə Respublikasının 44 günlük Vətən müharibəsində Azərbaycanın haqq mübarizəsinə dünyanın bir çox diplomatik tribunalarında, beynəlxalq arenada siyasi və mənəvi dəstəyini xalqımız hər zaman şərəflə, fəxrlə, qürurla xatırlayacaq. Postmüharibə dövründə də Azərbaycan Prezidenti cənab İlham Əliyev və Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan qarşıda duran məqsədlərin, iqtisadi tərəqqinin reallaşması üçün birgə səylərini davam etdirirlər. Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türk Şurasının üzvləri - Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın siyasi liderlərinin yekdil qərarı ilə Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif olunması və bu təşəbbüsün müəllifinin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın olması Türkiyə-Azərbaycan birliyinin, həmrəyliyinin bariz nümunəsidir.

Bu gün işğaldan azad etdiyi ərazilərində genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri aparan, 30 il düşmən əsarətində qalaraq yer üzərindən silinən şəhər və kəndlərini yenidən yaradan Azərbaycana Türkiyə öz qardaş köməyini əsirgəmir.

Şərqi Zəngəzurun və Qarabağın dirçəldilməsində Türkiyə ən yaxın dəstəkçimizdir. Belə ki, yerlə-yeksan edilmiş Qarabağ torpaqlarında yenidən körpülər, tunellər, yollar, dəmir yolları, elektrik stansiyaları, hava limanlarının tikilib ərsəyə gətirilməsində, infrastruktur layihələrin reallaşmasında Türkiyə şirkətləri yaxından iştirak edir. Qarabağın bərpası işində Türkiyə Azərbaycanla bərabər, çiyin-çiyinə çalışır. Bir çox Türkiyə şirkətləri, o cümlədən Rize-Artvin Hava Limanını inşa edən şirkət də daxil olmaqla bu gün Qarabağda onlarla türk şirkəti fəaliyyət göstərir.

İqtisadiyyatının ən güclü dövrünə qədəm qoyan, qüdrətli ordusu, demokratiya və hüquqa bağlılığı ilə dünyada söz sahibi olan Türkiyə dövlətinin dünyanın aparıcı ölkələrindən birinə çevrilməsi, bütün sahələrdə yüksək tərəqqiyə nail olması Azərbaycan dövlətinin, Azərbaycan xalqının qüruru, iftixarıdır. Çünki strateji müttəfiqlikdən əvvəl Azərbaycan ilə Türkiyəni dostluq, qardaşlıq, ortaq soykök, dil, din, mədəniyyət birləşdirir. Ulu öndər Heydər Əliyev dediyi kimi: "Türkiyə və Azərbaycan xalqlarının tarixi birliyi və sarsılmaz dostluğu bizim ən böyük sərvətimizdir. Belə bir möhkəm təməl üzərində qurulmuş dövlətlərarası münasibətlərimizdə bir-birimizə inam və etibarımız, qarşılıqlı dəstəyimiz böyük məmnunluq doğurur".

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**